

Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# AND YERİMİZ

## "Torpaq haqqı" olsun

**Son günlər ömür yolum anbaan gözümün önündə canlanır. Bu da təsadüfi deyil. Bütün ölkəni ayağa qaldıran, insanları dumanlanmış ümidini közərdən və alovlandıran odlu döyüş əməliyyatları mənim də içimdə tonqal qalayıb. O tonqalın alovları işığında Bakıdan üzü Qarabağa boylanıram. Və elə boylandığım məqamda da yadıma hələ 1991-ci ilin payızında, daha dəqiq desəm, sentyabr ayında kəndimdən yazdığım sonuncu yazı düşür. O yazının adı da yadımdadı:**

**- "Bakıdan Xankəndi görünmür".**

İndi isə içimdən də, Bakının hər bir nöqtəsindən də, bütün Azərbaycandan da, lap elə çalışdığım "Ədalət" qəzetindən də Xankəndi də görünür, döyüş gedən bölgələrimiz də, qaçan erməni də, onu qovan əsgərimiz də. Bəli, bu bir gerçəklikdi. Bu, ömrün son 15 gününün real yaşamının diqtəsidi. Əlim ürəyimin üstündə olsa da, gözüm, qulağım xəbər sorağındadı... Bayrağı qaldıracaq əlləri axtarıram... "Muştuluq!" qışqıracaq səsləri dinşəyirəm... Və yenə xəyalnan, duyğularnan qayıdıram ilkimə - kəndimə. Onda hər şey tamam fərqli idi. Və mən bu fəqrli durumda düşünürdüm, yazırdım:

***Yandı evim, eşiyim***
***Yandı divarım, daşım...***
***İsit, qoyma üşüyüm -***
***İsit məni göz yaşım...***

Və bunun ardınca da yazırdım ki:

***Qarşımdakı bu şəklə***
***Baxa-baxa qalmışam...***
***Elə bil ki, bu həkklə -***
***Ağır zərbə almışam...***
***Qayıtmaq gücüm də yox!***

Mən bu şeiri ona görə yazmışdım ki, təsadüfdən əlimə düşən kitablarımın birinin içərisində kəndimizin şəklini gördüm, evimizin şəklini gördüm. Tələbə yoldaşlarımızla birlikdə Azıx mağarasına səyahətə getmişdik. Oradan da Tuğa, kəndimizə gəldik.

Və bu təəssüratı potaya köçürdük. İndi qaçqınçılıq dövründə gəlib çıxdı qarşıma bu şəkil. Və mənim nələr yaşadığımı, nələr keçirdiyimi, nələr içimdən sel kimi hayla, harayla axıb getdiyini etiraf edim ki, yaza bilmirəm. Və anlayıram ki, bu zülm, bu əzab içimi qurd kimi gəmirir, tüstümü başımdan çıxarır.

Bəli, mən o şəkillə danışa-danışa özümü unutdum. Və bir də gördüm ki, anam dayanıb gözlərimin qarşısında. Yanaqlarında da yaş damcıları. O damcılar yarama od basdı, dağladı məni. Bir də xatırladım, qaçqınçılığımızın 10 yaşında anama yazmışdım:

***Ürəyi bir kövrək layla istəyir***
***Gözlərim yumulu, qulağım səsdə...***
***Sifətin qırışıb, əlin titrəyir,***
***Sən nə həvəsdəsən, mən nə həsədə?***
***Mənim çadırlarda qocalan anam.***

***Sözün göz yaşıdı, söhbətin acı***
***Elə çırpınırsan bu dar qəfəsdə.***
***On ildi gəzirsən başı aşağı***
***Sən nə həvəsdəsən, mən nə həsədə?***
***Mənim çadırlarda qocalan anam.***

***Saçın ağarmışdı, indi bozarıb***
***Nə yeriş həməndi, nə boyun bəstə.***
***Yuxusuz qalmaqdan gözün qızarıb***
***Sən nə həvəsdəsən, mən nə həsədə?***
***Mənim çadırlarda qocalan anam.***

***Zaman balta çaldı diləklərinə***
***Qığılcım axtardın ən adi kəsdə.***
***Dedin insaf gəlsin ürəklərinə***
***Sən nə həvəsdəsən, mən nə həsədə?***
***Mənim çadırlarda qocalan anam.***

***İllər dəyişdirdi bizləri yaman***
***Yalandı deyilən söz də, nəfəs də.***
***Laylanı eşidib, bəlkə, o zaman***
***Yenidən yaşayam mən o həvəslə***
***Mənim çadırlarda qocalan anam.***

İndi bu şeiri içimdə təkrarlayanda Beyləqana atılan düşmən mərmilərinin gurultusunu heç eynimə də almadım. Çünki indi düşmən son nəfəsini mərmiyə, gülləyə çevirsə də, uduzduğunu anlayır. Bilir ki, saman çöpündən yapışıb... bilir ki, bu torpağın ərənləri oyanıb... anlayır ki, Azərbaycanın Ali Baş Komandanı döyüş əmri verib. Və bu əmr birmənalı şəkildə yerinə yetirilir. Çünki bu xilas, bu, əks-hücum əmridi. Bu həm də Qələbəyə səsləyən bir çağırışdı!..

Mən həmin o illərin ağrısını-acısını yaşadığım illərdə özüm-özümə təsəlli verərək üçün xəyallar qururdum. Hətta Horadiz işğaldan azad ediləndə içimdə baş qaldıran böyük ümidin tonqala çevriləcəyinə dəli kimi inandım da. Şükürlər ki, 25 ildən sonra bu inam təsdiqini tapdı. Və indi bir vaxtlar uşaqlarıma üz tutub dediyim misralar duyğularımın kövrəkliyinə, özümün nə qədər hislərə qapılıb hərdən də ümidsizliyə baş əyməyimə bir nişanədi. Axı, onda yer də, göy də üstümə gəlirdi. Və mən onda əməlli-başlı Vətəndə vətənsiz idim. Bu vətənsizliyin nə demək olduğunu mənim yaşadıqlarımı, mənim çəkdiklərimi bilənlər bilir. Axı, onda dünya namərd idi... onda hər şey, hətta əlimi yandıran köz də mənə yaxşı heç nə demirdi. Amma indi... Onda yazmışdım:

***Dərdi, qəmi atmaq üçün***
***Başımızı qatmaq üçün...***
***Arzumuza çatmaq üçün -***
***Uydurmuşuq, bu gün, sabah yalanını.***

***Göz yaşıdı yatırımız***
***Su saxlamır çadırımız.***
***Görünsə də axırımız -***
***Uydurmuşuq, bu gün, sabah yalanını.***

***Üstümə kim qarıldadı***
***Buynuzları qarnındadı.***
***Damağımda qarın dadı!***
***Mən aranda uydururam bu təsəlli yalanları!***

Hə, hamımız bezmişdik təmtəraqlı sağlıqlardan... hamımız diksinmişdik "növbəti ad günü Qarabağda keçirək!" arzusundan... hamımız doymuşduq bələğətli sözlərdən. Amma indi "İnşallah, Qarabağda!.." deyiləndə artıq heç bir şübhəyə yer qalmır. Çünki reallıq göz önündədir... çünki Suqovuşan bizdədi... Bunu elə-belə demirəm. Axı su aydınlıqdı. Su qovuşubdusa, deməli, biz də qovuşacağıq. Bizim də alnımızda bir qovuşmaq yazısı varmış. Şükür o yazıya, şükür o yazını yazana! Görünür, Horadiz işğaldan azad olunanda və şəhərə rəhmətlik qara polkovnik Fətulla Hüseynovla ilk dəfə daxil olanda gördüyüm mənzərədən sonra yazdığım şeir özü də bir fəhm imiş. Onda yazmışdım ki:

***O daşa bax***
***sinəsini güllə deşib.***
***O ağacı***
***mərmi yıxıb.***
***Yaralı daş səngərdədi***
***şəhid ağac***
***öz kökünün kölgəsində.***
***Yaralı daş...***
***şəhid ağac...***
***Bizdən kişi***
***çıxıb, qardaş!***
***Bəlkə biz də***
***yola çıxaq,***
***bu qorxunu***
***yıxıb, qardaş!***

Bəli, indi yola çıxdığımız gündü. Ağdama, Füzuliyə, Cəbrayıla, Xocavəndə, Zəngilana, Qubadlıya, Laçına Ağdərəyə, Kəlbəcərə, Xocalıya, Şuşaya çıxdığımız yoldu bu yol! Və biz bu yolu artıq qalib kimi gedirik... torpağın sahibi kimi gedirik. Və hələ neçə illər bundan öncə xalq şairi böyük Bəxtiyar Vahabzadə ilə söhbətlərimizin birində mənə dediyi kimi, "Bu, böyük Qayıdışın yoludu". Bəxtiyar müəllim mənə ürək-dirək verirmiş kimi onu da dedi ki, "Darıxma, Türkün özünə dönüşü var. Bizim də böyük dönüşümüz olacaq. Bu, böyük Qayıdış kimi düşəcək tariximizə".

Xalq şairimizin bu fəhmi indi çin olur, indi gerçəkləşir. Və mən bu gerçəkləşən qayıdışın bir sıra nəfəri kimi özümü xoşbəxtlərin sırasında görürəm. Çünki "ölməyə vətən yaxşı" deyənlər elə-belə adamlar olmayıb. Onların istəyinin mahiyyəti indi bəlli olur mənə. Yadıma dünyasını dəyişmək ərəfəsində atamın dediyi söz də düşür. "Allah möhlət verə, gedib kəndimdə öləm!". Mən bu arzunun fərqinə indi daha çox varıram. İndi anlayıram ki, atam Allahdan elə-belə ömür istəmirmiş, kəndini görmək üçün möhlət istəyirmiş. Təəssüf ki, bu günü görmək, qələbə xəbərlərini eşitmək dünyasını dəyişən insanlarımıza nəsib olmadı. Amma ruh ki, yaşayır. İnanıram ki, indi o ruhlar Qarabağdadı, səngərləri keçib gediblər. Orda qarşılayırlar əsgərlərimizi... orda qarşılayırlar igidlərimizi.

Bəli, bu gün nə yazdığımı, necə yazdığımı o qədər də ifadə edə bilmirəm. Çünki içimdəki sevinc və qəhər qarışıb bir-birinə. Mən bu qarışıq və bu yozumu hər kəsə bəlli olan durumda ancaq və ancaq bir anı gözləyirəm, bir ana diqqət kəsilmişəm. O da Ali Baş Komandanın elan edəcəyi "QƏLƏBƏ!" sözüdür. İnanın, o sözün işığını, o sözün istisini də artıq hiss edirəm. Yəni artıq Azərbaycan bir müsəlləh əsgərə çevrilib. Hər kəs o qələbəni gözləyir... hər kəs o atəşfəşanlığı gözləyir... hər kəs Bakıda keçiriləcək "QƏLƏBƏ PARADI!"nı gözləyir. Mən elə o sevincin içərisində indidən özü-özümə deyirəm ki:

***Bütün ağrı-acını***
***Canıma köçürmüşəm...***
***Odunu, alovunu***
***Qanıma köçürmüşəm -***
***Vətən!***

***Özüm böyda sipərəm***
***Döyüşən ər, oğula...***
***Sərt tikanlı çəpərəm***
***Düşmən qorxar toxuna -***
***Vətən!***

***Gözümün ağını da***
***İşığına qatıram***
***Bayraqdar qədəminə***
***Ürəyimə atıram -***
***Vətən!***

***Yumruq boyda daşınam***
***Qol boyda da ağacın...***
***Vur düşmənin başına***
***Qoy itsin ağrın-acın -***
***Vətən!***

***Bu zəfər məqamında***
***Bir az ruhum yuxadı...***
***Birnəfəsə gedirəm***
***İndi yolum Tuğadı -***
***Vətən!***

Hə, şükür ki, yolum Tuğadı... Şükür ki, içimdə sıralanan ümidlər əsgərlərimizə qoşulub məndən öndə gedirlər. Və mən də bu cərgəyə qoşulmaq üçün hazıram. Özü də canla-başla. Və bir də mən artıq dəfələrlə yazıb təkrarladığım bir nisgili indi içimdən qovmaq gücündəyəm. Çünki özümün "Ehtiyacım elçi daşı" kitabında yazmışdım ki:

***Ana qucağından***
***isti yer***
***körpə qığıltısından***
***həzin musiqi***
***varmı dünyada!***
***Ana - ana torpaq***
***övlad əsgər.***
***Başını söykədiyin***
***sinəyə***
***sevgini göstər...***
***Ağrısını***
***süd kimi əm!***
***Qəmin kəm,***
***Ana, qəmin***
***kəm torpaq,***
***qəmin kəm...***

**Bu gün torpağımız da, analarımız da, övladlarımız da, özümüz də qəmdən qurtuluruq. Bu gün bir-birimizə gözaydınlığı veririk. Və bu gün biz həm də darıxdığımız torpağı çiynimizə qaldırmışıq. Çünki onun 30 il yad tapdağında qalmasına imkan vermişik. Və bu xəcalətdən çıxmağın qisasını qanımızla alıb onu çiynimizə qaldırmışıq ki, bir daha yad ayaq dəyməsin, yad nəfəs toxunmasın. İnşallah, belə də olacaq! Və biz bir-birimizə bundan sonra bir andla müraciət edəcəyik. Yəni sözümüzü, fikrimizi isbat üçün "TORPAQ HAQQI!" - deyib and içəcəyik. Yəqin siz də mənimlə həmfikir olacaqsınız. Çünki bundan gözəl and yoxdu dünyada. Mən də o andla sizə deyirəm:**

**- Torpaq haqqı, sizi Tuğda gözləyəcəm, gəlin!**